## *BİR EL SEVİNDİ*

Bu xalqın ümidi qırılan deyil-
Bu xalqın nicatı Öndər olubdur.
Daxili düşmənlər cövlan edəndə,
Xilaskar Atamız Heydər olubdur.

Çox ağrı-acılar çəksə də başı,
Üzü ağ çıxıbdır sınaqlardan o.
Qoymadı bölünə Vətən torpağı,
Qorudu milləti qınaqlardan o.

O, böyük işlərin müəllifıydi,
Qurub-yaradandı... Yaradan kimi.
Millətin yolunda, xalqın yolunda
Verdi o, özünü bir qurban kimi.

Bir oğul böyütdü, öz sevgisilə
Vətəni sevməyi öyrətdi ona.
Işıqlı yolların döngələrində,
Ata nəsiəti örnəkdi ona.

Bir oğul böyütdü, oğul! - deyirəm,
Surəti gözümdə, ürəyimdədir.
Halal süfrəmizə, çörəyimizə,
Haram qatanlara dərs verdi bir-bir.

Bir oğul böyütdü, oğul! - deyirəm,
Işıqlı gələcək açarı onda.
Bir ev sevinmədi, bir el sevindi,
Heydər davamçısı İlham olanda.

***Valeh Mirzə***
***Azərbaycan dövlətçilyinin qoşa qanadı. – B. : Təhsil, 2006. – S.***